

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 174 (24.311)

22 sentyabr 2023-cü il, cümə

*Gündəlik ictimai-siyasi qəzet*

Qiyməti 30 qəpik


*2023-cü il "Heydər Əliyev İli"dir*

## Ümummilli Lider Heydər Əliyevin təhsil siyasəti: gələcəyə ünvanlanan mükəmməl strategiya

*Azərbaycan Respublikasının siyasi, sosial-iqtisadi və mədəni həyatının elə bir sahəsi yoxdur ki, orada Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi, fəaliyyəti, dərinməzmunlu ideyaları, tapşırıq və tövsiyələri, zəngin irsi özünü göstərməsin. Şübhə yoxdur ki, bu gün ölkəmizin əldə etdiyi bütün uğurları nəzərdən keçirsək, onların məhz Ulu Öndər Heydər Əliyevin dövlətçilik fəlsəfəsindən qaynaqlandığının bir daha şahidi olarıq. Onun Azərbaycana rəhbərlik etdiyi bütün dövrlər mürəkkəb proseslər, taleyüklü məsələlər və problemlərlə müşayiət olunsa da, bu gün həmin tarixi mərhələlərdə dahi şəxsiyyətin Azərbaycan dövlətçiliyinin qorunması və inkişafı, vətəndaş mövqeyinin formalaşdırılması, sosial-iqtisadi çətinliklərin həlli istiqamətində yürütdüyü çoxşaxəli siyasət misilsizdir və xalqımızın gələcəyi naminə daim öyrənilməlidir. Odur ki, bu gün Azərbaycanın qazandığı nailiyyətlərin, sosial-iqtisadi inkişafının, o cümlədən torpaqlarımızın işğaldan azad olunmasının təməlində məhz Ümummilli Liderin təhsil siyasətinin də dayandığını söyləsək, yanılmarıq. Sirr deyildir ki, ölkənin dinamik inkişafı, onun beynəlxalq arenada yerinin və rolunun möhkəmləndirilməsi, peşəkar kadr potensialının formalaşması, milli təhlükəsizlik maraqlarının təminatı, hər birimizdə vətənpərvərlik hissinin və vətəndaşlıq mövqeyinin formalaşması və gücləndirilməsi təhsilin keyfiyyətindən də çox asılıdır.*




Sovet hakimiyyəti illərində SSRİ-nin milli siyasətinin əsas məqsədlərindən biri etnik respublikalarda milli-mədəni dəyərlərin aşılanması, xalqların öz tarixi keçmişlərindən uzaqlaşması, ənənələrin unudulması "sovet mədəniyyəti", "sovet adamı" kimi amorf stereotiplərin cəmiyyətin şüuruna və ictimai həyata yeridilməsi olmuşdur. Məhz görkəmli dövlət xadimi Heydər Əliyevin yürütdüyü təhsil siyasəti hələ sovet rejimi dövründə Azərbaycanda rəsmi ideologiyaya qarşı reaksiyanın və müqavimətin formalaşmasında unikal imkanlar yaratmışdı.

Dahi şəxsiyyət Azərbaycanda hakimiyyətdə olduğu ilk dövrlərdən təhsilin inkişafına, məktəb tikintisinə, təhsil müəssisələrinin zəruri dərs avadanlıqları ilə təmin olunmasına xüsusi diqqət ayırırdı. Eyni zamanda qarşıda duran mühüm vəzifələrdən biri respublikanın ucqar yaşayış məntəqələrində də təhsilin keyfiyyətini paytaxt məktəblərinin səviyyəsinə yüksəltmək və müəllimlərin iş şəraitini günün tələbləri səviyyəsinə qaldırmaq olmuşdu. Belə ki, 1972-1973-cü illərdə qəbul edilmiş "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qərarlara uyğun olaraq Azərbaycanda keyfiyyətli orta təhsil şəbəkəsinin genişləndirilməsi istiqamətində fəal quruculuq işlərinə start verilmişdi. Eyni zamanda Ulu Öndərin Azərbaycan SSR-ə rəhbərlik etdiyi illərdə ölkənin bütün regionlarında uğurla həyata keçirilən təhsil islahatları təkcə bu sahənin deyil, bütövlükdə, Azərbaycanın intellektual bazasının sürətli inkişafına, milli kadr potensialının daha da gücləndirilməsinə geniş imkanlar yaratmışdır.

***"Təhsil millətin gələcəyidir və təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz"***, – deyən Ulu Öndər vurğulayırdı ki, Azərbaycanın dövlət müstəqilliyinin xalqa bəxş etdiyi ən böyük nemətlərdən biri yeni təhsil sisteminin tarixi irsə, milli-mənəvi-əxlaqi dəyərlərə və dövlətçilik ənənələrinə uyğun şəkildə qurulmasıdır. Məqsəd yeni təhsil sisteminin, ilk növbədə, dövlətimizin gələcək inkişafını nəzərə almaqla onun Azərbaycanın prinsiplərinə, dövrün tələblərinə uyğun formalaşdırılmasıdır. Bu işdə təhsil sahəsində çalışan bütün mütəxəssislərin, rəhbər işçilərin və müəllimlərin üzərinə olduqca böyük və məsuliyyətli vəzifələr düşür. Ümummilli Lider yeni dərsliklərin hazırlanmasına və innovativ dərs proqramlarının tərtibinə də ciddi diqqət ayrılmasını tövsiyə edirdi.

Görkəmli dövlət xadiminin ölkəmizdə təhsilin inkişafına böyük qayğısının ifadəsi idi ki, 1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 1965-ci ilə nisbətən üç dəfədən çox artaraq 2117-yə, 1982-ci ildə isə bu rəqəm 4267-yə çatdı. Şagirdlərin sayı 1970-ci ildəki 368 mindən 1980-ci ildə 710 minə yüksəldi. 1970-1980-ci illərdə respublikada 683,1 min şagird yerlik 1191 yeni məktəb binası tikilib istifadəyə verildi ki, bu da 1946-1970-ci illərdəki müvafiq göstəricidən iki dəfə çox idi. Ulu Öndərin Azərbaycana rəhbərliyinin birinci dövründə peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1,7, təhsilalanların sayı isə 2,5 dəfə artdı. Onun təşəbbüsü ilə 1971-1975-ci illər üçün texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafı üzrə strategiya müəyyənləşdirildi, 54 yeni texniki peşə təhsili müəssisəsi fəaliyyətə başladı. Həmin illərdə Azərbaycanda əlavə olaraq beş ali təhsil ocağı da yaradılmış və nəticədə, burada yüksək ixtisas alan tələbələrin sayı 100 min nəfərə çatdırılmış və təhsilin keyfiyyəti günün tələbləri səviyyəsinə qaldırılmışdı. O da xüsusi vurğulanmalıdır ki, 60-cı illərin sonunda ölkənin 12 ali məktəbində 105 fakültə, 450 kafedra olduğu halda, 80-ci illərin əvvəllərində 21 ali məktəbdə, təqribən, 150 ixtisas üzrə 136 fakültə və 530 kafedra fəaliyyət göstərirdi.

Məhz ötən əsrin 70-80-ci illərində aparılan innovativ islahatların və genişmiqyaslı quruculuq işlərinin nəticəsində həmin dövrdə müxtəlif ixtisaslara yiyələnmək üçün xarici ölkələrdən Azərbaycana tələbə axını başlanmışdır. Paralel olaraq Ümummilli Liderin təşəbbüsü və qayğısı sayəsində 1970-ci ildən etibarən hər il, təqribən, 800-900 gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almaq üçün göndərilirdi.

Ümummilli Lider ***"Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır"*** fikri xalqımızın dövlət müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndərin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi illərdə səslənsə də, göründüyü kimi, bu məqsəd hələ sovet dövründə onun əsas amalı olmuş və bu məsələni, xüsusilə müəllimlərə qayğını, onların sosial şəraitinin yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlamışdı. Onun çoxillik zəngin dövlətçilik təcrübəsinin qənaətinə görə, təhsil sistemi yalnız bilikli, yüksək səviyyəli mütəxəssislərin yetişdirilməsi ilə kifayətlənməməli, ilk növbədə, yeniyetmələrin, gənclərin təfəkküründə, ictimai şüurda həqiqi vətəndaşlıq mövqeyinin formalaşdırılmasında fəal iştirak etməlidir. Belə ki, Azərbaycanın milli ideologiyasını cəmiyyət içərisində effektiv və geniş təbliğ etmək üçün məktəblərdə Azərbaycan tarixinin tədrisinə, xalqımızın keçdiyi çətin və şərəfli yolun yaddaşlarda möhkəmləndirilməsinə çox ciddi fikir vermək lazımdır. Gənc nəsil xalqımızın tarixi keçmişini, ibrət dərslərini daim öyrənməli və bu gün qarşısında duran məsul vəzifələri yaxşı bilməlidir. Bütün bunları nəzərə alan Ümummilli Lider Heydər Əliyev üzünü ölkənin təhsil sistemi rəhbərlərinə, müəllimlərə tutaraq deyirdi: ***"Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Hər bir insan gərək, eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun".***

Dövlətçiliyin möhkəmləndirilməsində, ölkənin siyasi-iqtisadi və sosial inkişafının, müdafiə qabiliyyətinin, intellektual potensialının inkişafında təhsilin əhəmiyyətini yüksək dəyərləndirən Ümummilli Lider müstəqillik illərində təhsilin inkişafına diqqətini daha da artırmış, bu sahədə problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil sisteminin qurulması üçün mühüm tədbirlər həyata keçirmişdir. Misal üçün, aparılmış islahatlar nəticəsində ümumtəhsil məktəblərinin sayı və şagird kontingenti əsaslı surətdə artdı. Əgər 1993-1994-cü tədris ilində respublikanın 4364 ümumtəhsil məktəbində 1 milyon 549 min şagird təhsil alırsa, 2002-2003-cü tədris ilində 4561 ümumtəhsil məktəbində 1 milyon 600 min nəfərdən çox yeniyetmə təhsilini davam etdirirdi. Bundan başqa, müstəqillik illərində də Ümummilli Lider ali təhsilin inkişafı ilə bağlı əhəmiyyətli qərarlar qəbul etmiş, 2000-ci ildə ali təhsil müəssisələrinin şəbəkəsi optimallaşdırılmış, onlara universitet statusu verilmişdir. 1997-ci ildə bakalavriat təhsilini başa vuran məzunlar ilk dəfə olaraq magistratura səviyyəsində təhsilə başlamışdılar.

Xatırlatmaq lazımdır ki, Azərbaycan müəllimlərinin 1998-ci ildə keçirilmiş növbəti – XI Qurultayında Heydər Əliyev öz çıxışında təhsil sisteminin uğurlarına, perspektivlərinə və çətinliklərinə toxunaraq məktəb tikintisinə diqqətin artırılmasının əhəmiyyətini də vurğulamış və bu barədə imkanlı iş adamlarına çağırış etmişdi. Həmin çağırışdan sonra bu sahəyə diqqət artmış, dövlət təşkilatlarının vəsaitləri, beynəlxalq təşkilatların qrant və kreditləri, iş adamlarının, xeyriyyəçilərin vəsaitləri hesabına yeni məktəb binalarının inşasına başlanılmışdır. Elə həmin il görkəmli dövlət xadiminin müvafiq Sərəncamı ilə təhsil sahəsində islahatlar proqramı hazırlanmış və təsdiq edilmişdir. Proqramda təhsilin gələcək inkişaf strategiyası müəyyənləşdirilməklə mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu. 2002-ci il oktyabrın 4-də isə ölkə başçısı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" imzaladığı Sərəncamda bu amillərin təhsil sisteminin inkişafında vacibliyini vurğulamışdır.

Qeyd olunmalıdır ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş təhsil ənənəsi və təhsil islahatları, bu gün də onun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Prezidentinin təşəbbüsü ilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın uğurlu icrası, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın, həmçinin "2022-2026-cı illər üçün xaricdə təhsil üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi ölkəmizin gələcəyi üçün olduqca əhəmiyyətlidir.

Bu gün əminliklə deyə bilərik ki, ölkəmizdə təhsilin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Məhz təhsilə göstərilən yüksək diqqət və qayğı sayəsində Naxçıvan Muxtar Respublikasında da təhsilin inkişafı yeni mərhələyə qədəm qoyub. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda digər sahələr kimi, təhsilin bütün pillələrinin inkişafı üçün də prioritet istiqamətlər müəyyənləşdirilib. Hazırda Dövlət Proqramının icrası istiqamətində mühüm tədbirlər həyata keçirilir. Milli təhsilimizin inkişafı istiqamətində atılan bu addımlar gələcəyimizə daha nikbin baxmağa imkan verir.

**Jalə HACIYEVA**

***Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin direktoru***

## Tarixi Zəfərimizə gedən yolun başlanğıcı

Ordubad Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Əsrin müqaviləsi" Tarixi Zəfərimizə gedən yolun başlanğıcıdır" mövzusunda tədbir keçirilib.



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli çıxışında qeyd edib ki, Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilib və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilib. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Ulu Öndərin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindəndir. Bu gün Prezident cənab İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxışında Ümummilli Liderin ölkəmizin hərtərəfli inkişafında, müstəqil Azərbaycan Respublikasının dünya birliyində layiqli yerini tutmasında müstəsna xidmətlərindən danışıb.

Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Təşkilatının sədri, rayon ağsaqqalı Fərrux Nağızadə Heydər Əliyevin dövlətçilik təlimində ölkəmizin hərtərəfli inkişafının mühüm yer tutduğundan danışıb və müəllifi olduğu "Dalğalanır bayrağım, səslənir himnim mənim" adlı şeirini bədii qiraət edib.

**Xəbərlər şöbəsi**

# "Dəmir yumruğ"un möhtəşəm təntənəsi, acı sonluqla bitən erməni nağılı...

Məzmun və mahiyyətinin zərrə qədər dəyəri olmayan, mənfi obrazların yer aldığı, cəfəng fikir və düşüncələrdən yoğrulan 30 illik uydurma erməni nağılı, nəhayət ki, sona çatır, bitir. Daha doğrusu, sona çatdırılır, bitirilir. Birliyin, həmrəyliyin gücü, "Dəmir yumruğ"un möhtəşəm təntənəsi ilə əzəli yurdumuz Qarabağda separatizmin kitabı bağlanır... İndi miatsum andından dönməyən səriştəsiz rəhbər 44 günlük Vətən müharibəsini və son 3 ildə baş verən hadisələri xatırlayaraq əllərini ümidsizcəsinə hey günahkar başına döyəcləyir. Di gəl ki nə fayda. Artıq çox gecdir. Yubanıbdır, kaş Amerika, Fransa kimi ölkələrdən imdad diləmək üçün gündə 10 dəfə telefon dəstəyindən yapışmaqdansa, bircə dəfə mənə uzadılan humanist əldən yapışardım demək üçün. Bəli, bir vaxtlar Cəbrayıla yol çəkmək xülyası ilə alışıb-yanan Paşinyanın 44 günlük Vətən müharibəsindən sonra həsrət alovlu gözləri yenə sonu görünməyən uzun yol çəkir. Uzaq Qərb əllərindən harayına yetişməyən "sadiq dostlarının", qədim, əzəli Azərbaycan torpaqları sayılan Xankəndidə, Xocalıda, Ağdərədə havaya uçurulan separatçıların yolunu. Cəfəng ideyaları, lüzumsuz nifrəti sayəsində maddi, mənəvi, demoqrafik, sosial-iqtisadi, siyasi, geosiyasi, hərbi baxımdan itirdiklərini, regionun əhəmiyyətli layihələrindən kənarda qaldıqlarını düşünə-düşünə qulaqlarında Qalib liderin gerçəkləşən qətiyyətli sözləri ildırım kimi çaxır: ***"...ağlınızı yığın başınıza. Dəmir yumruq buradadır, heç yerə getməyib, yerindədir. Bizi əsəbiləşdirməyin, özünüzü yaxşı aparın. Özünüzü yaxşı aparsanız, onda rahat yaşaya bilərsiniz. Yox, əgər bir daha bizə qarşı hər hansı bir təxribat, bəyanat, hərəkət olarsa, heç kimə baxmadan başınızı əzəcəyik. Heç kim də sizi müdafiə edə bilməz".***





II Qarabağ müharibəsində rüsvaycasına məğlubiyyətini Rusiyanın iştirakı ilə üçtərəfli Bəyanatı imzalamaqla rəsmiləşdirən Ermənistanın xunta rejimi, təəssüf ki, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırdı. Separatçı qüvvələr törətdikləri təxribatlara qarşı Azərbaycan Ordusundan dəfələrlə aldıqları zərbələrdən dərs çıxarmaq əvəzinə gün ötdükcə daha da azğınlaşıb, daha da quduzlaşdılar. Qarşı tərəf hərbi sahədə etdiyi provakasiyaları diplomatiyada, siyasət meydanında da böyük şövqlə, həvəslə davam etdirdi. Nə Brüssel Sülh Gündəliyində söz verdiyi kimi, vaxtilə imza atdığı 1991-ci il "Alma-Ata Bəyannaməsi"nə sadiq qaldı, nə də keçirilən üçtərəfli görüşlərdə irəli sürülən humanist təkliflərlə razılaşdı. Hər dəfə bir bəhanə, bir oyunla həm yerli, həm beynəlxalq ictimaiyyəti çaşdırmağa, mənasız yerə vaxt uzatmağa çalışdı. Gah humanitar məqsədli "Laçın" dəhlizindən çirkin hərbi-siyasi məqsədlər naminə istifadə edərək müxtəlif diversiya qrupları ilə təxribatlara əl atdılar, ərazilərimizi minalayaraq onlarla günahsız insanın həyatına son qoydular, gah "məsumluq" donuna bürünərək yalandan aclıq aksiyasına qalxıb haray-həşir qopardılar, gah da "Spayka" şousu göstərərək BMT-də, Xankəndidə heç bir hüquqi əsası olmayan qondarma prezident seçkiləri keçirməklə dünya ictimaiyyəti qarşısında özlərini rəzil vəziyyətə saldılar. Ancaq qalib Azərbaycan liderinin siyasi iradəsi, Müzəffər Ordumuzun qüdrəti qarşısında bütün siyasi, diplomatik, hərbi hiylələr iflasa uğradı, qurulan oyunlar acı məyusluğa, məğlubiyyətə düçar oldu. Cənab Prezidentin dediyi kimi: ***"...anti-Azərbaycan qüvvələr bizim əyilməz iradəmizi gördü. Heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz. Biz bunu İkinci Qarabağ müharibəsində Ermənistana sübut etmişik, müharibədən keçən iki il yarım ərzində Ermənistanın himayədarlarına sübut etmişik. Onları məğlub etmişik və bir daha bütün dünyaya göstərmişik ki, biz istədiyimizə nail oluruq və olacağıq".***

Sentyabrın 19-da baş verən təxribat nəticəsində Daxili İşlər Nazirliyinin əməkdaşlarının həyatlarını itirməsi isə artıq "Dəmir yumruğ"un son günlərdə dolan səbir kasasını daşıran sonuncu damla oldu. Və beləliklə, böyükdən-kiçiyə bütün Azərbaycan xalqının səbirsizliklə gözlədiyi, separatçıların qondarma iddialarının, özbaşınalıqlarının üstündən birdəfəlik qara xəttin çəkilmə anı yetişdi. Azərbaycan Müdafiə Nazirliyi məlumat yayaraq bildirdi ki, Üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələri birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb. 44 günlük Vətən müharibəsində olduğu kimi, antiterror tədbirlərinin də başlandığı andan düşmənin ard-arda qondarma hərbi obyektlərinin məhv edilmə görüntüləri, xəbərləri yayıldı. Əməliyyatlarda düşmənin ön xətdə, dərinlikdə olan mövqeləri, uzunmüddətli atəş nöqtələri, döyüş vasitələri və hərbi təyinatlı obyektlərinin yüksək dəqiqliklə sıradan çıxarılması ilə yanaşı, ölkə Prezidenti cənab İlham Əliyevin ***"Biz BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul olunmuş qətnamələrinin icra olunmasını tələb edirik. Bu qətnamələrdə Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur. Dağlıq Qarabağın erməni əhalisinə gəlincə, onlar orada yaşamağa davam edəcək, onlar bizim vətəndaşlarımızdır və mən dəfələrlə bu mövqeyi ifadə etmişəm"*** qətiyyəti bir daha özünü göstərdi. Rəsmən bildirildi ki, Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı mülki əhali və mülki infrastruktur obyektləri hədəfə alınmır. Ordumuzun arsenalında olan yüksək dəqiqlikli silahların tətbiqi ilə yalnız legitim hərbi hədəflər sıradan çıxarılır. Mülki əhalinin təxliyəsini təmin etmək üçün isə Azərbaycan tərəfindən Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz, qəbul məntəqələri yaradılıb, buna müvafiq işlər həyata keçirilir.

Ölkəmizin son dövrlərdə apardığı danışıqlardakı diplomat uğuru da antiterror tədbirlərinin başlandığı ilk andan özünü büruzə verdi. Belə ki, Rusiya Dövlət Dumasının Müdafiə Komitəsinin rəhbəri Andrey Kartapolov "Shot"a müsahibəsində qeyd etdi ki, Rusiya sülhməramlıları heç nə onları təhdid etmədikcə proseslərə qarışmayacaqlar. Eyni zamanda beynəlxalq diplomatlar, siyasi ekspertlər ölkəmizin haqlı mövqeyini, antiterror tədbirlərini birmənalı şəkildə dəstəklədilər. Məşhur britaniyalı politoloq Neil Uatson qeyd etdi ki, işğalçı ermənilər bilirlər ki, Xankəndidəki tanınmamış qurum yaxın günlərdə darmadağın ediləcək, bununla belə Azərbaycanı əziyyətə salmaq, mümkün qədər çox insanın həyatına son qoymaq, sülh prosesini pozmaq istəyirlər. Amma son nəticədə, Azərbaycan öz ərazisi üzərində nəzarəti bərpa etməyə nail olacaq və beynəlxalq hüquq təmin ediləcək. Niderlandlı araşdırmaçı, ekspert Henri Van Rens isə dedi ki, mina terrorunun baş verməsi, təbii ki, çox üzücüdür. İlk olaraq onların ailələrinə başsağlığı vermək istəyirəm. Əminəm ki, bu faciəyə görə məsuliyyət daşıyan erməni işğalçıları öz cəzalarını alacaqlar. Ən böyük dəstək isə təbii olaraq qardaş ölkədən gəldi.Türkiyə Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olundu: "İkinci Qarabağ savaşının başa çatmasından bu yana ötən təxminən, üçillik müddətdə ərazidəki vəziyyətə dair daim dilə gətirdiyi qanuni və haqlı narahatlıqların aradan qaldırılmaması nəticəsində Azərbaycan öz suveren torpaqları üzərində lazım bildiyi tədbirləri görmək məcburiyyətində qalıb. Azərbaycan və Ermənistan arasında bu günə qədər həssaslıqla aparılan ətraflı görüş prosesinin nəticəyönümlü olaraq davamının təmin edilməsinin bölgəyə sülh, təhlükəsizlik, rifah və daimi sabitliyin təmini üçün yeganə yol olduğuna inanırıq". Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə Nyu-Yorkda BMT Baş Assambleyasının 78-ci iclasında çıxışı zamanı bildirdi ki, Qarabağ Azərbaycan torpağıdır, bunun xaricində heç bir status qəbul edilməyəcək: "Bir millət, iki dövlət!" şüarı ilə hərəkət etdiyimiz Azərbaycanın ərazi bütövlüyünü qoruması üçün atdığı addımları dəstəkləyirik və Ermənistanın addımlarını şiddətlə qınayırıq".

Düşmən nə qədər kin qusub təxribatlara əl atsa da, Azərbaycan tərəfi antiterror tədbirlərinin başlandığı andan işğalçılara humanist çağırışlar etdi, onlara tamamilə məhvdən xilas olmaları üçün dəfələrlə şans verdi. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası bəyan etdi ki, ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri ilə Yevlaxda görüşə hazırdır. Lakin antiterror tədbirlərinin dayandırılması üçün qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırmalı, bütün silahlar təhvil verilməli, qanunsuz rejim özünü buraxmalıdır. Əks təqdirdə, antiterror tədbirləri sona qədər davam etdiriləcək.Və belə də oldu. 24 saat davam edən antiterror tədbirləri Müzəffər Ordumuzun parlaq Zəfəri ilə yekunlaşdı. Sentyabrın 20-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumata görə Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq 2023-cü il sentyabrın 20-də saat $13^{00}$-da müəyyən şərtlər əsasında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olundu. Razılığa əsasən Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır. Eyni zamanda paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir. Qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir. Beləliklə, "Dəmir yumruğ"un möhtəşəm təntənəsi kimi şanlı hərb tariximizə qızıl hərflərlə həkk olunacaq antiterror əməliyyatları ilə Azərbaycan öz hədəfinə çatdı və Qarabağın erməni sakinlərinin nümayəndələri ilə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reinteqrasiyası, infrastrukturunun bərpası və fəaliyyətinin təşkil olunması məsələləri üzrə müzakirələrin aparıldığı Yevlax görüşü ölkə Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi olaraq məsələyə öz möhürünü vurdu.

Sentyabrın 20-də antiterror tədbirlərinin yekununa dair Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqa müraciətində dünya siyasi elitasına, beynəlxalq ictimaiyyətə, işğalçı rejimin himayədarlarına bir sıra mühüm, sərt mesajlar verdi. Ermənistanın törətdiyi terror aktlarını, separatizm əməllərini qəti şəkildə pisləyən ölkə başçısı Silahlı Qüvvələrimizin peşəkarlığından söhbət açdı, şəhidlərimizin ruhuna rəhmət, yaralılara şəfa dilədi. Müraciətdə qanunsuz xunta rejiminin məhvinə səbəb olan antiterror tədbirlərinin uğurlu gedişatından bəhs olundu, dövlətimizin iqtisadi gücü sayəsində, heç bir yardım almadan Qarabağın, Şərqi Zəngəzurun cənnətə çevrildiyi, gələcəkdə Xankəndidə, Ağdərədə, Xocavənddə, Əsgəranda da müasir infrastrukturun yaradılacağı vurğulandı. Azərbaycan və Ermənistanın öz aralarında məsələləri tənzimləməsinin, sülh müqaviləsi imzalanmasının və Cənubi Qafqaz ölkələrinin üçtərəfli formatda gələcək əməkdaşlığının qurulmasının vacibliyini diqqətə çəkən Prezident cənab İlham Əliyev regionda vəziyyəti gərginləşdirmək üçün əsassız ittihamlar irəli sürənlərə layiqli cavabla yerlərini göstərdi: ***"...onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz tikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, dəmir yumruq yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!"***

**Nail ƏSGƏROV**

## Rəsm əsəri muzey kompleksinə hədiyyə olunub



Türkiyəli rəssam Nilgün Ayşecik Çevikin Möminə xatın türbəsinə həsr olunmuş əsəri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə hədiyyə olunub. Bu münasibətlə muzey kompleksində təşkil edilmiş mərasimdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Piri Nağıyev Ümummilli Lider Heydər Əliyevin muzeyşünaslığın inkişafı ilə bağlı xidmətlərindən bəhs edib. Bildirib ki, ölkəmizin hər bir bölgəsində olduğu kimi, muxtar diyarda da muzeylərin fəaliyyətinin canlandırılması, yeni muzeylərin yaradılması sahəsində mühüm işlər görülüb, Azərbaycan tarixinin yeni uğurlu səhifələri muzey ekspozisiyalarında əksini tapıb. Muxtar respublikada muzey fondlarının mütəmadi zənginləşdirilməsi diqqət mərkəzində saxlanılır.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev imzaladığı Sərəncamla təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası ərazisindəki bəzi tarixi-memarlıq abidələrinin, eləcə də Möminə xatın türbəsinin UNESCO-nun maddi-mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün iş aparılır.

Azərbaycan dövlətçilik tarixinin, memarlığının, qadına, anaya olan münasibətin şah əsərlərindən biri sayılan Möminə xatın türbəsinin bu gün də rəssamların yaradıcılığına təsir göstərdiyini vurğulayan Piri Nağıyev qardaş ölkənin tanınmış fırça ustalarından olan Nilgün Ayşecik Çevikin rəsm əsərinin



"Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində nümayiş olunmasının çox sevindirici olduğunu qeyd edib, müəllifə və rəsm əsərini muzeyə hədiyyə etdiyinə görə Ülviyyə Həmzəyevaya təşəkkürünü bildirib. Diqqətə çatdırılıb ki, "Möminə xatın türbəsi" rəsm əsəri muzey ziyarətçilərinin estetik zövqünü oxşamaqla yanaşı, qiymətli əsər kimi daim qorunub saxlanılacaq.

Rəsm əsərinin yaranma tarixçəsi və işlənmə texnikasından danışan Naxçıvan Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva diqqətə çatdırıb ki, əsər müasirliyi və qədimliyi özündə birləşdirən unikal bir sənət nümunəsidir. Rəssam kətan üzərində ebru və akril boya ilə çəkdiyi rəsm əsərini "Naxçıvan – bəşəriyyətin beşiyi" Beynəlxalq Rəsm Festivalında iştirak zamanı ərsəyə gətirib.

Sonra çıxış edən Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya Möminə xatın türbəsinin bir çox türk rəssam tərəfindən kətan üzərinə köçürüldüyündən bəhs edib və belə bir tarixi məkanda türk rəssamının əsərinin nümayiş olunacağından qürur hissi keçirdiyini bildirib. Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi və Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlamətdar olan 2023-cü ildə bir sıra mədəni tədbirlərin də təşkil olunacağını vurğulayıb.

Tədbirin sonunda muzeyin ekspozisiyasına baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Fəxr edirik səninlə, Azərbaycan Əsgəri!



Azərbaycan əsgəri, müqəddəs Vətənimizin igid, ər, qəhrəman oğulları! Qoynunda dünyaya göz açdığınız Vətənin oğlu adını şərəflə daşıyırsınız. Vətənin məcnunu kimi bütün maneələri, çətinlikləri qorxmadan dəf edirsiniz. Vətənin keşiyində məğrur dayanıb vətəndaşlıq borcunuzu şərəflə yerinə yetirirsiniz. Üçrəngli bayrağımızın kölgəsini cənnət bilir, rəşadət, dəyanət, cəsurluq, igidlik, qorxmazlıq kimi yüksək mənəvi keyfiyyətləri üzərinizdə daşıyırsınız. Sinənizi güllə və mərmilərə gözünüzü qırpmadan sipər etməyə, müqəddəs Vətən üçün canınızdan keçməyə hər an hazırsınız. Ayaq səsləriniz, məğrur duruşunuz, qorxmazlığınız düşmənləri lərzəyə salır, qarşınızda işğalçı təslim olur. Ayağınız dəyən torpaqları azad edir, xalqımıza sevinc, başucalıq gətirir, qürur yaşadırsınız. Sizin bir dağ kimi yenilməz duruşunuza, ucalığınıza düşmən həsəd aparır.



44 günlük Zəfəri bizlərə bəxş etdiniz, Azərbaycan əsgəri! Qarış-qarış torpaqları sizlər azad etdiniz. Bu şərəfli səhifələri qəhrəmanlıq tariximizə al qanınızla yazdınız. Rəşadətiniz dastan olub dillərdə dolaşdı, kitablara sığmayan qəhrəmanlıq göstərdiniz. Mübariz ruhlu, Polad ürəkli oğullarımız, qalibiyyət bayrağımızı Şuşada, Laçında, Kəlbəcərdə və azad etdiyiniz bütün torpaqlarımızda zirvələrə ucaltdınız. Diz çökdü qarşınızda pis niyyətlilər, Vətəndən xəbəri olmayan ikiüzlü, satqınlar. Bu gün də düşmənə möhlət vermirsiniz, Qalib əsgər adını şərəflə daşıyırsınız, Azərbaycan əsgəri!

Qələbə sorağınız dünyanı dolaşdı, gözü götürməyənlərin gözünə ox olub batdı. Düşmənin belini qırdı Dəmir yumruğunuz. Döyüş meydanlarından qaçdılar, gizləndilər. Ancaq siz top-tüfəng qarşısında məğrur dayandınız, millətimizə fəxr yaşatdınız. Ən uca zirvəyə – Şəhidlik zirvəsinə yüksəldiniz, qazi adını şərəflə qazandınız. Canınız-qanınız bahasına tarix yazan igidlərimiz, qəlbimizdə daim yaşayacaqsınız.

Ali Baş Komandanımız, tarix yazan sərkərdədən güc aldı əsgərimiz! Anamız Azərbaycan qovuşdu Qarabağa! Qalmadı qisassız tökülən qanlar. Bu gün yenilməz Ordumuzun, müdrik xalqımızın dilindən fəxrlə səslənir – cənab Ali Baş Komandan! Sabaha inamla addımlayır səninlə Azərbaycan! Yolumuz haqq yoludur, ədalət, sülh yoludur! Tarixi ədalət daim Zəfər çalır!

Müzəffər Ali Baş Komandanımızın dediyi kimi: ***“Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!”***

Soyuqda da, istidə də, gecə də, gündüz də səngərlərdə Vətəni qoruyan, “Vətən sağ olsun!” kəlməsini son nəfəsinə qədər qəlbində daşıyan, Azərbaycan əsgəri! Vətənimizin aydın səhərinin, işıqlı sabahımızın qoruyucularısınız! Xalqımızın fəxri, qürurusunuz. Həmişə sizinləyik, Azərbaycan əsgəri!

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

### Əfsanəyə dönən ömürlər

## Muradına çatan Murad



Bir igid də uyuyur Şərur elində. Muradına çatan Murad deyir ona əzizləri. O da həmin igid oğullardandır ki, xalqımıza qələbə sorağı gətirib, özü torpağa, Vətənə döndü. Şərur rayon Çomaxtur kəndinin Vətən müharibəsində igidlik göstərən oğullarındandır Murad. Azadın, Aqilin, Zülalın tale yoldaşı. Hərəsi bir yerdən üz tutmuşdu Vətən döyüşlərinə. Aqil Murovda, Azad, Zülal Şuşa uğrunda, Murad isə Xocavəndin azad olunmasında döyüşmüş, əhdinə çatmışdı. O da ürəyində Vətən sevgisi, köksündə üçrəngli ay-ulduzlu bayraq, çiynində silah daşıyıb, qarlı aşırımları, keçilməz dağları aşıb, illərdir, arzusunda olduğumuz o günü – şanlı Qələbə gününü xalqımıza yaşadanlardan biri olmuşdu.

Kiçik çavuş Murad Xəlilli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan torpaqlarımızın azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə, oktyabrın 30-da şəhidlik zirvəsinə ucalıb. O, igidliyi ilə yoldaşlarından geri qalmayıb son nəfəsinə kimi döyüşüb, bir ovuc torpaq olub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə “Vətən uğrunda”, “Şuşanın azad olunmasına görə”, Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif olunub. Onun ailəsi də dövlətimiz tərəfindən hər bir şəraitə malik olan mənzillə təmin edilib. Muradın yadigarı bir qız övladı böyüyür indi o mənzildə. Gözünün nuru bircə balası bütöv Azərbaycanın bəxtəvər övladı kimi böyüyür. İllər keçdikcə, dünyanı dərk etdikcə, o öz şəhid atası ilə fəxr duyacaq. Biləcək ki, onların atalarının sayəsində alınmızdakı qara ləkə silindi. Vətənimiz bütöv oldu. Şuşamız, Ağdamımız, cənnət Qarabağımız şəhidlərin qanı, canı bahasına Vətəninə qovuşdu.

O, qürur duyacaq ki, artıq kəndlərinə gedəndə atasının rəsmi qarşılayacaq onu bu yaşayış məntəqəsinin dörd igidinin rəsmləri ilə birlikdə. Çomaxtur kəndinə gələn qonaqları da. Onların məğrur duruşu tarix dərsi keçəcək illər boyu hamıya.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Davamlı fiaskoya uğrayan Fransa qanlı keçmişini xatırlasa yaxşıdır

*İkinci Qarabağ savaşının Azərbaycanın tam və qəti qələbəsi ilə başa çatmasından 3 il keçməsinə baxmayaraq, Ermənistanın 10 noyabr üçtərəfli Bəyanatının müddəalarına əsasən üzərinə götürdüyü öhdəlikləri əməl etməkdən yayındığının şahidi olduq. Xüsusilə Azərbaycanın Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğu regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyinə çevrildi. Son bir neçə ayda Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqelərinin müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi gərginliyin artmasına səbəb oldu. 44 günlük Vətən savaşından keçən dövr ərzində 300-dən çox Azərbaycan vətəndaşı mina terrorunun qurbanı olub, ya da ağır yaralanıb.*

2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, mina terroruna son qoyulması istiqamətində sentyabrın 19-da ordumuzun lokal xarakterli antiterror tədbirləri düşməni bir neçə saat ərzində layiqincə cəzalandırdı. Terrorçular layiqli cəzalarını aldı və bir daha Ermənistana göstərildi ki, onların istənilən təxribatına sərt cavab veriləcəkdir. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi, hərbi texnikası məhv edildi və sıradan çıxarıldı. Beynəlxalq ictimaiyyət də yaxşı bilir ki, bölgədə sülh və sabitliyə nail olmağın yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, qondarma rejimin buraxılmasıdır.

Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqa müraciətində də bu məsələ ilə bağlı ciddi ismarıclarını verdi: ***“...Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar”.***

Bu gün Azərbaycan qarşıya qoyduğu strateji hədəflərə nail olmaq üzrədir. Amma burada da Azərbaycan Qərbin ciddi təzyiqləri ilə üzləşdi. Son 3-4 ay ərzində Qərbin müxtəlif dairələrində təzyiqlər artan xətt üzrə davam edir. Açıq-aydın görünür ki, Qərb dairələri Azərbaycandakı separatçılıq ocağının aradan qaldırılmasını, bölgənin normal həyata qayıtmasını istəmir və bu ərazilərdə separatizmin mövcudluğunda maraqlıdırlar. Bu hal Qarabağda keçirilmiş qondarma “seçkilərə” münasibətdə də özünü büruzə verdi. “Seçkilər”ə çox az sayda ölkə münasibət bildirdi, ABŞ isə yalnız Azərbaycanın təzyiqlərindən sonra Dövlət Departamentinin işçisi səviyyəsində münasibət ortaya qoydu.

Azərbaycanın bir gündə erməni terroru nəticəsində 10-a yaxın şəhid verməsini Qərb dairələri tam sükutla keçdilər. Nə bir siyasətçi və dövlət başçısı, nə də rəsmi şəxs bəyanat verdi, çağırış etdi. Amma Azərbaycan bu terror ocağının aradan qaldırılması ilə bağlı tədbirlərə başladıqda Qərbdə bəyanat verməyən siyasətçi qalmayıb. Bu Qərbin riyakar və ikili standartlarının bariz nümunəsidir. Fransa həmişəki kimi öz riyakar simasını nümayiş etdirir.

Bütün bunlar göstərir ki, 30 il Azərbaycan torpaqlarını işğal altında saxlayan, bir milyondan çox insanın bəlalarına səbəb olan, şəhər və kəndlərimizi xarabazarlığa çevirən erməniləri, Ermənistanın hakim dairələrini yazıq, əzilən, ac-yalavac, hüquqları pozulan millət kimi dünyaya təqdim etmək, onların tərəfində durmaq Fransanın dövlət siyasətinə, ən ali məqsədinə çevrilmişdir. Bu gün ermənilərin taleyinə bu ölkələrin rəhbərlərindən daha çox Makron və onun tərəfdarları ağlayırlar. Fransa prezidentinin, bu ölkənin xarici işlər nazirinin, bir çox merlərin müsahibələri Azərbaycanın suverenliyinə, dövlət quruluşuna, müstəqilliyinə zidd olan fikirləri heç bir beynəlxalq normaya sığışmır. Bu, əslində, demokratiya, humanizm deyil, təcavüzkar Ermənistanı revanşist mövqeyini davam etdirməyə həvəsləndirmək, qarşıdurmanı kəskinləşdirmək, müharibəni alovlandırmaq, Cə-



nubi Qafqazda təhlükəsizliyi sarsıtmaqdır. Makron yaxşı anlayır ki, Azərbaycan özünün milli təhlükəsizliyini qorumağa, sərhədlərini möhkəmləndirməyə, düşmənə və havadarlarına cavab verməyə qadirdir və onun təsir göstərə biləcəyi dövlət deyil. Belə olan halda təcavüzkarları qızışdırmağa, Cənubi Qafqazda söz sahibi olmağa cəhd edir, Ermənistanın yanında olduğunu sübut etməyə çalışır. Ancaq bütün bunlar əhəmiyyətsiz gedişlər, beynəlxalq aləmi çaşdırmaq üçün vasitədir.

Bu gün Türkiyə və Azərbaycana qarşı ittihamlar irəli sürən Fransanın müharibə cinayətlərinin tarixi daha qədim, coğrafiyası isə olduqca genişdir. Separatçı erməniləri və işğalçı Ermənistanı dəstəkləyən fransız Senatı isə, ilk növbədə, bu əməllərə siyasi qiymət verməlidir.

XVI əsrdən müstəmləkəçilik siyasəti yürüdən Fransanın II Dünya müharibəsindən əvvəl işğal etdiyi ərazilərdə – öz ərazisindən 20 dəfə böyük bir coğrafiyada talançılıq və qətlləri bütün dünyaya məlumdur. Afrikanın 20-dən artıq ölkəsində öz hakimiyyətini quran fransızların müstəmləkə siyasəti II Dünya müharibəsindən sonra iflasa uğradı. Həmin dövlətlərə müstəqillik verməyə məcbur olan Fransa neokolonializm üsul-idarəsini seçdi. Afrika ölkələrini əlindən buraxmaq istəməyən fransızlar yeni metodlara əl atdılar. Həmin dövlətlərin ərazilərində münaqişələr yaratdılar və öz qoşunlarını “sülhməramlı missiya” adı ilə yerləşdirdilər.

Təsadüfi deyil ki, indiyədək qitə ölkələrində baş vermiş hərbi çevrilişlərin 70 faizi fransızların təsiri altında olan dövlətlərin payına düşür.

Fransa müstəmləkə ölkələrinin hamısına səfalət və faciə gətirib. Afrika ölkələrində müstəqillik uğrunda gedən müharibələrdə 2 milyondan çox insan həlak olub. Təkcə Əlcəzairdə fransız ordusu 1 milyondan çox insanı qətlə yetirib.

1944-cü ilin noyabrında baş verən Seneqal hadisələrində fransızlar tərəfindən yüzlərlə Seneqal əsgəri güllələndi. 1994-cü ildə fransızlar Ruandada “təhlükəsiz zona yaratmaq” adı altında hərbi əməliyyat həyata keçirdilər. Nəticədə, 800 mindən çox insan qətlə yetirildi. 2014-cü ildə Ruanda Prezidenti Pol Kaqame soyqırımı aktında Fransanın rolunu dəqiq müəyyən etdiyi barədə bəyanat da verdi.

Bu arada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu cür qaranlıq tarixə malik olan Fransanın qondarma “erməni soyqırımı” ittihamlarına cavabını xatırlatmaq yerinə düşər: *“Erməni məsələsi və terrorla mübarizə adı altında Türkiyəyə insan haqları və demokratiya dərsi verənlərin qanlı keçmişi olduğunu görürük. İyirmi beş il əvvəl Ruandada 800 min insanı qətlə yetirənlərin kimlər olduğu aşkardır. Əlcəzairdə yüz minlərlə insanı qətlə yetirən və soyqırımı törədən də Fransadır”.*

Bir sözlə, Fransanın günü-gündən nüfuzunu itirməsi, regiona təsir imkanlarının bütün cəhdlərdə iflasa uğraması rəsmi Parisi Ermənistana dəstək verməkdən çəkindirməli, riyakar və ikiüzlü siyasətdən əl çəkməli, Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşmalıdır. Belə olmadığı təqdirdə, Fransanın terrorçu dövlət olduğu və dünyadakı bütün terrorçulara dəstək verdiyini bütün dünya birmənalı olaraq qəbul etmək məcburiyyətində qalacaq.

Bəli, bu gün Vətən müharibəsini Zəfərlə başa vuran Azərbaycan bölgədə tamamilə yeni reallıqlar yaradıb. Ən böyük reallıq, əlbəttə ki, torpaqlarımızın azad edilməsi, Ermənistanın işğalçı siyasətinə son qoyulmasıdır. Yeni reallıqlar zəminində qarşıda duran digər məsələlər bölgədə kommunikasiyaların açılması, sərhədlərin delimitasiya və demarkasiyası, sülhün təmin olunmasıdır. Bu prosesdə isə artıq söz Azərbaycanındır. Çünki Vətən müharibəsinin yaratdığı reallıqlar Azərbaycanın milli maraqları və siyasi iradəsi çərçivəsində cərəyan edir.

Bütün bunların fonunda belə bir həqiqət də öz təsdiqini tapdı ki, güclü və müdrik lideri olan dövlət qarşısında duran bütün məqsədlərə çata bilir. Bu baxımdan Vətən müharibəsindən sonrakı prosesləri Prezident cənab İlham Əliyevin siyasi-diplomatik fəaliyyəti kontekstində nəzərdən keçirdikdə onun güclü lider kriteriyalarına cavab verən siyasi lider olduğu bir daha aydın şəkildə görünür.

**Arzu ABDULLAYEV**
***Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru***



# PAYIZ duyğulu, şəhid qoxulu, qələbə sevincli müjdə xəbəri...

Payız insan ömründə ən çox iz buraxan fəsildir. Baharın bütün gözəlliklərini göz qırpımında alıb saraldan, xatirələrimizi yarpaq-yarpaq tökən bir fəsildir. Payız quşların köç fəsli, tənha adamların qəm pəncərəsindəki təbəssüm tablosu, sevənlərin xəzan dolu yollarıdır.

Günəşi bizdən alaraq bir-birinə dəyib guruldayan payız buludları bir göz qırpımında göy üzünə pərdə çəkib, canımıza soyuq vəlvələ salır. İsti yay günlərində buludların lay-lay ağ-qara topasında yuxuya gedən yağış payızın gəlişi ilə ürəklənir, qılıncını siyirib göyü doğram-doğram edərək yeri-göyü öz işığına qərq edir.

Payızın gəlişi ilə meşələr, bağlar, çöllər quşların cəh-cəhindən aralı qalıb, köks ötürür. Görəsən, payızın gəlişi ilə uçub gedən təkcə quşlarmı olacaq? Əlbəttə, yox. Gedən quşları düşündükcə hiss edirik ki, gələn il yazda uçub isti diyarlara köç edən bu sevimli “civcivlər” yazda yenə civildəşə-civildəşə öz doğma yuvalarına bayram sovqatı ilə geri dönəcək.

İlk qədəmini yenicə atan bu payız ömrümüzün yenicə başa çatmış bir yayını da özü ilə götürüb apardı. O yay bir də eyni ab-hava ilə, şirin-şirin deyib-güldüyümüz, bir evdə qaldığımız sevdiklərimiz də geri dönməyəcək, o yaydan geriyə qalan isti, həlim və acılı-şirinli xatirələr olacaq. İllər keçdikcə o ılıq nəfəs, daşa dönmüş xatirələr qəlbimizi üşüdəcək.

Bu payız hər ilkindən daha bərəkətli, daha qucaq dolusu bar gətirir. Sanki bütün fəsilləri izləyib, göy üzünü, yer üzünü, bu dünyanın hər üzünü gəzib bizə qucaq dolusu xəbərlər gətirir. Bütün rəngləri özündə ehtiva edən payız bizə rənglərin bənzərsiz cazibəsini yaşadır.

Günlər düşmür təqvimdən. Bu payız gecikir. Sanki rişxəndlə qırcınaraq bir az daha...bir az daha intizarla gözləyin yolumu, sizə həm nisgilli, həm müjdəli xəbərlər gətirmişəm. Ayağımızın altında yarpaqlar xışıldadıqca hiss edirik ki, hardasa bir ananın gözü yol çəkir, əli qabarlı atanın qışa tədarükü başlayır, teli xınalı gəlin Vətənə xidmət edən əsgər yolu gözləyir. O əsgər ki torpaq yalnız və yalnız ona əmanətdir. Əsgər torpağın çiçək olur döşündə, sancaq olur yaxasında, qol verir boynunu qucaqlamağa, göyünə baxmağa göz verir bəzən. Bəzən qayalara yapışıb qalır, bəzən mamırlara dönüb göyərir, bəzən isə ikinci həyat olur torpağına.

Bu payızı şəhid xəbərləri ilə qarşıladıq. Ağaclar nəfəssiz qalıb yarpaqlarını daha tez tökür sanki. Bəlkə də, yaramıza sarğı olmaq üçün tökülür bu payız yarpaqlar. Və yaxud şəhidlərlə aramıza girir bu payız yarpaqları...

Sözü xəzan yellərinə verən bu payız yarpaqları, həmçinin xoş xəbərlərin müjdəçisidir. Hamımızın 30 il həsrətini çəkdiyimiz qələbə müjdəsinin. Nər igidlər düşmən üzərinə yeridi. Ulular da baş qaldırdı torpaq altdan qaya kimi. Torpağın taleyində igidlərin yaşaması dağ olmaqla mümkün oldu. Bu basılmaz ərənlər, bu qaya sərkərdələr daş olub düşmənin başına yağdı. Min qoldan güc alan bir ağıl gücü zülmətdən aydınlığa aydın yol oldu, qol ağıl oldu, ağıl qol oldu. Mübariz harayının nidalarında, Poladlaşan biləklər yeri titrətdi, göyü əsdirdi.

Yağış kimi yağdırılan mərmilərin saçdığı ölüm qorxusu ilə əsgərin torpağa sarılması, ona gömülməsi torpağı ona yeganə dost, qardaş və ana edir. O isə öz hıçqırığını əbədi olaraq torpağın lal sükutuna boşaldaraq vurulduğu yerdə yuxuya gedir.

İndi qapı döyürük – ürək qapısı. Seldən qopan, yeldən qopan, oddan yapışan ürək qapısı. Durub indi yeri öpək, daşı qucaq, doğruya qan, şərə qalxan olaq...səs ver bizim səsimizə Vətən!

Şəhidlik qəhrəmanın ölümü deyil, ölümün qəhrəmanlığıdır. Ey şəhid qardaşlarım, siz varsınız...siz sağsınız, siz öz qanınızla yandırdığınız çırağa hələ də işıq olmaqda davam edənsiz... Sizsiz indi göylərdə Günəş olub haqq saçan, sizsiz bəyaz buludlara bürünən günahsızlaşan, saflaşan… Rahat uyuyan, əmin uyuyan, səssiz uyuyan. Ovuc-ovuc torpaq gətirib, zərrə-zərrə qanınızdan Vətən yaradan siz deyilsinizmi?! Sizsiniz öz içinə tökülələcək hər daşın qanı... Sizsiniz Xudafərinin söykəndiyi sahilə qaya olan, dikələnə dirək olan, aşana çiyin. Biz gördük, ey şəhid qardaşlarım, canınızdan keçib torpağa can olmağınızı...zəfər cənglərini, əbədiyyət uğurlarını...torpağın əmanət müjdəçilərini... Sizlərsiniz öz bağınıza keşik çəkib bağban olan...torpağı qərənfillə, lalə ilə allandıran Vətən oğulları, qeyrət simvolları... İndi şərəf, namus deyə yetişdirən, torpaq sizi qoynuna alıb, yenidən cücərdir, hər gün eyni ruhda doğulan oğullar “sönməyən məşəl” yaradıb, verir bu yurda... Bir dəfə can verib, daim yaşayan, ey şəhid qardaşlarım! Şairin də dediyi kimi:

*Hansı yara sağalmaz ki, bədəndə,*
*Torpaq alsa qucağına Vətəndə?!*
*Hansı yara sağalmaz ki, ürəkdə,*
*Dağda, düzdə çiçək açsa hər rəngdə?!*
*Hansı yara sağalmaz ki, yaddaşda,*
*Köhnə ocaq naxış salsa o daşda?!*
*Hansı yara sağalmaz ki, bu canda,*
*Ruh şəhadət səmasına uçanda?!*
*Öz qanıyla qüsul alan yuyulmaz,*
*Kəfənlərə, sarğılara sarılmaz,*
*Şəhadəti ovuc-ovuc içən var,*
*Hansı şəhid, hansı yara sağalmaz?!*

Sizi qoynuna alan yumruq boyda torpağınız varsa, siz ölməzsiniz. Tarix yaşadıqca siz yaşayacaq, bu Vətənin hər qayasında qeyrət, hər daşında ar olacaqsınız... Bu yurdda yeni bədənlərdə, eyni ruhdan doğulanlar olub, dolaşacaq... Vətən olub, vətənləşən, qan olub bayraqları bayraq edən, mavi səmalara yüksələn, Azərbaycan deyə hökm edən bayraq olacaq... Siz heç zaman ölməyərək, “Bayraqları bayraq edən üstündəki qan, torpaq uğrunda ölən Vətən olacaqsınız!!!”

Ey mavi göylərin bəyaz süsü, qız bacımın gəlinliyi, şəhidimin son örtüyü. Dalğalanan ay-ulduzlu bayrağım, sənin dastanını oxudum, sənin dastanını yazıram. Dalğalandığın yerdə nə qorxu, nə kədər var. Sabah olmasa, Günəş doğmasa belə kölgəsinə sığındığımız ay-ulduzlu and yerim.

Füzulidən Murovdağa, Hadrutdan Kəlbəcərə, Laçından Şuşaya, Zəngilandan Xankəndiyə şanlı tariximizi qanlarıyla torpağa yazaraq bizlərə əmanət edən din, dövlət, mülki-millət, istiqlal və istiqbalımız üçün canlarını fəda edən, ürəklərini sipər edən Odlar Yurdunun qəhrəman şahidləri, siz ölməzsiniz, siz əbədisiniz. Siz 44 günlük müharibənin ilk günlərində ermənilərin “Azərbaycanı Yevlağa qədər qovmuşuq” eyforiyasını puç edərək Xocalının qisasını almış, antiterror əməliyyatları zamanı cəmi 24 saata erməni silahlı dəstələrini təslim olmağa, onları müqəddəs ay-ulduzlu bayrağımızın altında yaşamağa məhkum etmisiniz, Yevlağa qədər olan erməni ümidlərini elə çox uzağa getmədən Kür çayının sahilində dəfn etmişsiniz!

**Fariz ƏHMƏDOV**

## Bədii gimnastika üzrə beynəlxalq turnir keçirilir



*Naxçıvan Şəhər İlham Əliyev adına Olimpiya İdman Kompleksində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan bədii gimnastika üzrə “Grace of Nature” beynəlxalq turniri keçirilir.*

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Gimnastika Federasiyası və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə ilk dəfə keçirilən gimnastika üzrə beynəlxalq turnirdə Qazaxıstan və Azərbaycan komandalarının, ümumilikdə, 300-dən çox idmançısı mübarizə aparır. İki gün davam edəcək turnirdə iştirak edən 20 klubun üzvləri kiçiklər (2016-2017-ci il), balacalar (2013-2015-ci il), yeniyetmələr (2011-2012-ci il) və gənclər (2008-2010-cu il) üzrə yaş kateqoriyasında öz məharətlərini nümayiş etdirəcəklər.



Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının bədii gimnastika bölməsinin baş məşqçisi Humay Qafarovanın rəhbərliyi ilə yarışda iştirak edəcək “Naxçıvan” komandasının tərkibi Təranə Əlizadə, Mədinə Novruzlu, Nilufər Kərimli, Damla İsgəndərli, Dəniz Əliyeva, İlay Sangur, Dəniz Həsənova, Səma Ələkbərli, Damla Əliyeva, Aydan Hüseyni, Fidan Hüseynli və Mehriban Quliyevadan ibarətdir.



Turnirin açılış mərasimindən öncə Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini Mariana Vasileva, Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri, nazir səlahiyyətlərini müvəqqəti icra edən Məcid Seyidov və təşkilatçı qurumların nümayəndələri Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad ediblər.

Turnirə start verilməzdən öncə Ümummilli Lider Heydər Əliyevə həsr edilmiş videoçarx nümayiş etdirilib. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.Turnirdə iştirak edən komandaların keçidi olub.

Günün birinci və ikinci yarısında mükafatlandırma mərasimləri keçirilib. İlk günü uğurla başa vuran idmançıların fikirlərini öyrəndik.



Bakı şəhərindən gələn 8 yaşlı ***Özel Mira*** ilk gündə turnirin qalibi olub: “Su İdman Sarayında artıq bir neçə ildir ki, gimnastika ilə məşğul oluram. Tez-tez beynəlxalq yarışlarda iştirak edir və qələbələr qazanıram. Son olaraq ölkə daxilində keçirilən turnirdə də qalib gəldim. Sevinirəm ki, bu gün də Naxçıvanda keçirilən turnirin birincisi oldum. Digər komanda yoldaşlarıma da uğurlar arzulayıram”.



Bakı şəhər “Ocaq Sport Klubu”nu təmsil edən 8 yaşlı ***Nilay Pünhanlı*** da qaliblər sırasında olub. O artıq 4 ildir ki, bu idman növü ilə məşğuldur: “Gimnastikanı ailəm və müəllimlərimin köməyi ilə daha yaxşı öyrənməyə çalışıram. Sevdiyim bu idman növü mənə yarışlarda müxtəlif qalibiyyətlər qazandırır. Bu gün də birinci yerin qalibləri sırasındayam. Buna görə məşqçilərim Vəfa xanım, Aysel xanım və Humay xanıma minnətdarlığımı bildirirəm”.



“Ocaq Sport Klubu”nun digər bir qalibi isə 6 yaşlı ***Asya Mahmudzadə***dir. Naxçıvanda qazandığı qələbə isə onun beynəlxalq turnirdə ilk nailiyyətidir: “Bu gün qazandığım birincilik mənim ilk uğurumdur. İstəyirəm gələcəkdə iştirak etdiyim digər beynəlxalq turnirlərdə də belə böyük qələbələr qazanım”.



Səkkiz yaşlı ***Emilya Bəxtiyarlı*** da Naxçıvanda fəxri kürsüyə çıxan idmançılardan biridir: “Anamın ən böyük arzusu mənim gimnast olmağım idi. Mən də anamın arzusunu reallaşdırmaq yolunda addımlayıram. Bu gün burada qazandığım qələbə məni çox sevindirdi. Bu idman növü ilə məşğul olmaq mənə çoxlu dostlar qazandırıb. Mənimlə bərabər burada iştirak edənlərin hər birinə uğurlar arzulayıram”.

Yarışa övladlarına dəstək üçün gələn valideynlərdən Bakı şəhər sakini ***Liliya Novruzova*** bildirdi ki, qızı Amina Novruzova 10 yaş kateqoriyası üzrə mübarizə aparır. Bakı Şəhər Gimnastika Məktəbini təmsil edir: “İnanıram ki, qızım bu yarışdan qələbə ilə ayrılacaq. Balacalıqdan bu idman növünə böyük marağı olub. Biz də valideynlik borcumuzu yerinə yetirib ona hər cür dəstək göstəririk”.

***Humay Alıkişiyeva*** da Bakıdan gəlib: “Qızım Röya Alıkişiyeva 12 yaş kateqoriyasında mübarizə aparır. O hər zaman qələbələri ilə bizi sevindirib. İnanıram, bu gün də qaliblər sırasında yer alacaq. Qızımın müəllimlərinə və bu yarışın təşkilatçılarına dərin minnətdarlığımı bildirirəm”.

**Ceyhun MƏMMƏDOV**
**Bülbül QULİYEVA**

## “Gənc Dövlət Qulluqçularının II Çoxnövçülük Kuboku” adlı intellektual turnirə yekun vurulub



Azərbaycan Respublikasının Gənclər Fondu və Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun birgə təşkilatçılığı ilə keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş intellektual oyunlar üzrə çoxnövçülük turnirinə yekun vurulub.

Finalda iştirakçılar “Iquiz” intellektual oyununda mübarizə aparıblar. 30 dövlət orqanının təmsil olunduğu “Gənc Dövlət Qulluqçularının II Çoxnövçülük Kuboku”nun qalibi Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin komandası olub, Ədliyyə Nazirliyi II, Gənclər və İdman Nazirliyinin komandası isə III yeri tutub.

Çoxnövçülük çərçivəsində keçirilən “Nə? Harada? Nə zaman?” intellektual oyununda I yeri Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin, II yeri Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin, III yeri isə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun komandası tutub. “Breyn rinq” intellektual oyununda I yeri Gənclər və İdman Nazirliyinin, II yeri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, III yeri isə Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin komandası tutub.

“Iquiz” intellektual oyununda isə I yeri Təhsil, II yeri Ədliyyə nazirliklərinin komandası, III yeri isə Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin komandası tutub.

Qaliblərə kubok, diplom və qiymətli hədiyyələr təqdim olunub.

**Xəbərlər şöbəsi**

### İtmişdir

Culfa şəhərində yaşamış Cəfərov Nazim Məmmədhəsən oğlunun adına olan Culfa şəhəri, Təbriz küçəsi, ev 7a ünvanında yerləşən fərdi yaşayış evinin 20.08.2002-ci il tarixli 2720 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonunun Ağrı kəndində yaşamış Bağırov Ramazan Əsgər oğluna məxsus olan 59[A] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Fətullayev Elşən Hüseyn oğlunun adına olan JN-883[A,B] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Oğlanqala kəndində yaşamış Eyvazova Zəhra Məmmədvəli qızının adına olan JN-862[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
www.serqqapisi.gov.az
Nömrəyə məsul: Fariz Əhmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 572